*UOT 37.0*

***Elvin Səfər oğlu Səmədov***
*AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun*
*fəlsəfə doktoru proqramı üzrə doktorantı,*
*Lerik rayon Piran kənd tam orta məktəbinin direktoru*
https://orcid.org/0009-0003-9902-4749

# MÜASİR TƏHSİL VƏ ƏMƏK BAZARINDA BİLİK, BACARIQ VƏ VƏRDİŞLƏR ÜÇBUCAĞININ ƏHƏMİYYƏTİ

***Эльвин Сафар оглы Самедов***
*докторант по прграмме доктора философии Института Языкознания имени Насими Национальной Академии Наук Азербайджана,*
*директор полной средней школы села Пиран Лерикского района*

# ЗНАЧИМОСТЬ ТРЕУГОЛЬНИКА ЗНАНИЙ, УМЕНИЙ И НАВЫКОВ В СОВРЕМЕННОМ ОБРАЗОВАНИИ И НА РЫНКЕ ТРУДА

***Elvin Safar Samadov***
*doctorial student in the program of doctor of philosophy*
*at the Institute of Linguistics named Nasimi of Azerbaijan National Academy of Sciences,*
*director of the Piran village middle school of Lerik district*

# THE İMPORTANCE OF THE TRİANGLE OF KNOWLEDGE, SKİLLS AND HABİTS İN TODAY'S EDUCATİON AND LABOR MARKET

**Xülasə.** Məqalədə bilik, bacarıq və vərdişlər haqqında məlumat verilmiş, bu üçlüyün ilkin dövrlərdən günümüzə qədər olan vaxt ərzində təhsildə, ümumən insanların həyatındakı əhəmiyyətindən söhbət açılmış, həmçinin müasir təhsil və əmək bazarındakı rolu haqqında danışılmışdır. Bununla yanaşı bilik, bacarıq və vərdişlərin daşıdığı anlayışlar izah edilmiş, fərdin qabilliyyət və təcrübəsində rolu haqqında məlumat çatdırılmışdır.

***Açar sözlər:*** *əmək bazarı, bilik, bacarıq, vərdişlər, tanışlıq, tədris prosesi, müasir təhsil, tədqiqat və təqdimat bacarığı*

**Резюме.** В статье представлена информация о знаниях, умениях и навыках, а также обсуждается важность этих трех элементов в образовании и жизни людей в целом с древнейших времен до наших дней. Также речь шла о современном образовании и его роли на рынке труда. В то же время объяснялись понятия знаний, умений и навыков, а также предоставлялась информация о роли индивидуальных способностей и опыта.

***Ключевые слова***: *рынок труда, знание, умение, навыки, знакомство, учебный процесс, современное образование, исследовательские и презентационные навыки*

**Summary.** The article provides information about knowledge, skills and habits and discusses the importance of these three elements in education and human life in general from the beginning to the present day. It also explains the concepts of knowledge, skills, and habits, shedding light on the role of individual abilities and experiences.

***Key words:*** *Labor market, knowledge, skills, habits, acknowledgement, learning process, modern education, research and presentation skills*

İnsan cəmiyyətinin formalaşdığı ilkin dövrlərdən üzü bəri bilik, bacarıq və vərdişlər insanın inkişafının təməl prinsipləri olmuş və bu üçlük daima insan cəmiyyətinin ilkin inkişaf mərhələsindən dövrümüzə qədər əsas rola malik olmuşdur. İbtidai insan özünün ilkin bəsit şüuru

vasitəsi ilə təbiəti dərk etməyə başladığı zamandan onun müşahidə etmək xüsusiyyəti genişləndikcə ətrafında olan hadisələrlə ünsiyyəti hesabına məlumatlar – biliklər əldə etməyə başlamışdır. Getdikcə mürəkkəbləşən həyat tərzi və inkişaf tələbatına görə bu biliklərdən istifadə edərək müəyyən bacarıqlara yiyələnmiş və özünün həyat tərzinin daha münasib olması üçün bunlardan yararlanmışdır. Lakin məlumdur ki, həyatın tələbi sağ qalmaq üçün insandan əldə etdikləri biliklərdən davamlı olaraq istifadə etməyi istəyir.

Artıq bu tələbin getdikcə artması insanın əldə etdiyi bacarıqları vərdiş halına gətirməsini tələb etmişdir. Hər hansı bir bacarığın vərdiş halına gətirilməsinin bir üstün cəhəti də odur ki, vərdiş olan bir işi icra etmək ona öyrəşildiyi üçün daha rahat olur və xüsusən, həyat şəraitində, gündəlik nizamda nədənsə faydalanmaq üçün vərdişlər insanı əldə etmək istədiyi nəticəyə daha rahat və səmərəli çatdırır. Bundan əlavə, vərdişlərin sayəsində böyük təcrübələr əldə edilir. Təcrübə isə əmək bazarında yüksək nəticə əldə etmək üçün ən önəmli bir məsələdir. "Müəyyən təcrübə qazandıqdan sonra eyni işi onu başladığınız zamana nisbətən çox daha yaxşı bacararsınız. Təcrübə mükəmməlliyə aparır sözü də bunu ifadə edir." [5, s. 38].

Mövzunu daha dəqiq izah etmək üçün, ilk olaraq, ayrılıqda bu üç anlayışın daşıdığı mənanı bilmək önəmlidir. İlk olaraq, biliyin daşıdığı anlayışa nəzər yetirək; bilik anlayışı müxtəlif cür və mürəkkəb formada anlaşıla bilər. Ona görə də məqalədə əvvəlcə biliyin ilkin sadə anlayışını öyrənmək daha münasib olar. Bilik anlayışı, ilk olaraq, hər hansı obyekt, təbiət hadisəsi və digər proseslər haqqında ilkin məlumat toplusu kimi anlaşıla bilər.

Mürəkkəb formada isə bunu tədqiqatların, analizlərin, praktik-laborator işlərin nəticəsinin yekunu olaraq əldə olunan məlumat toplusu kimi də anlamaq olar. Biliyi birinci halda təsviri-tanışlıq bilik, ikinci halda isə təcrübi-nəticə bilik kimi də adlandırmaq mümkündür. Əldə olunan biliklər növbəti addımlarda daha artığını öyrənmək üçün bizə kömək etmiş olur. "Düşünmə tərzi və biliklər nəyi necə öyrənməyimizə təsir edir." [2, s. 158].

İkinci olaraq, bacarıqların nə anlam verdiyinə diqqət edək; bacarıqlar isə artıq hər iki halda əldə edilən biliklər sayəsində onlardan yararlanaraq işi icra etmək və əsas da bununla bərabər, prosesi inkişaf etdirmək xüsusiyyətinə sahib olmaq imkanı yaratmış olur.

Üçüncü olaraq isə vərdişlərin daşıdığı anlayışa nəzər yetirək; bilik və bacarıqlardan daha səmərəli, zamana qənaət formasında istifadə edilməsində vərdişlər ön plana çıxır. Vərdişləri birbaşa olaraq yaddaşla – hafizə ilə əlaqələndirmək daha uyğun olar. Çünki hər hansı bir işin icrasını vərdiş halına salmaq üçün əsas olaraq onu yaddaşa daha yaxşı yazmaq lazımdır. İşi vərdiş halına salmağın əsas yolu da onu mütəmadi olaraq təkrar və davamlı şəkildə icra etməkdən asılıdır.

Ümumiyyətlə, bu üçlüyün ilk addımı *"tanışlıq"* mərhələsi hesab olunmalıdır. Çünki hər hansı bir bilik probleminin qoyuluşu belə həmin bilik məlumatı ilə tanışlıqdan başlayır. Bu tanışlıq düşünülmüş, yəni tələbatdan və ya *spontan* tanışlıq olaraq baş verə bilər.

Təhsildə isə bu üçlüyün çox önəmi vardır. Belə ki, tədris materialının, dərsin öyrənilməsi birbaşa bu mərhələlərdən keçir. İstənilən bir materialı öyrənmək üçün, ilk olaraq, onunla tanış olmalı, sonra tanışlıq üzərindən bilik əldə etməli, öyrənilən biliyi həyata tətbiq etmək üçün mütləq bacarıqlara yiyələnməli və bu bacarıqlardan həyat fəaliyyəti zamanı daha səmərəli yararlanmaq üçün vərdiş halına çevrilməlidir.

Şagirdlər üçün bu üçlüyün aşağı və yuxarı yaş qruplarında fərqli olaraq tətbiq edilməsi daha məqsədəuyğun olar. Məlum məsələdir ki, tədris materialının mənimsənilməsi və tədris prosesi ağır, eləcə də zəhmət tələb edən bir prosesdir. Buna görə də onunla məşğul olmaq, mənimsəmək heç də asan bir iş deyil. Prosesi düzgün qurmayanda cansıxıcı və mənimsənilməsi çox çətin olur ki, bu da qarşı tərəfi öyrənməkdən çəkindirəcək, hətta qorxudub uzaqlaşdıracaqdır.

Bunların baş verməməsi üçün bu məsələyə daha həssas və qarşı tərəfə maksimum sadə, rahat və cansıxıcı olmayan bir mühit şəraitində əyləncəli, praktiki yollar tətbiq etməklə, əyani vəsaitlərdən istifadə edərək, ciddi nizam-intizam, tələbkarlıq, həmçinin lazımi mühit yaradaraq ötürmək lazımdır. "İnadlı əmək və onun vasitəsilə qazanılmış intellektual bacarıq və vərdişlər olmadan nə təlimdə müvəffəqiyyət əldə etmək olar, nə də əməyə psixoloji və əməli hazırlığa nail olmaq olar." [3, s. 366-367].

Bunun üçün uzun illər lazım gəlir ki, bu illəri ardıcıl və səmərəli olaraq keçirməkdən ötrü mütləq şəkildə düzgün və lazımi formada bacarıqlar mənimsədilməli və prosesi davamlı, faydalı şəkildə qurmaq üçün şagirdlər vərdişlərə sahibləndirilməlidir. Əgər bunlar düzgün qurulmazsa, şagirdin müvəffəqiyyət əldə etməsi mümkün olmayacaqdır. Misal üçün, bilik əldə etmək vərdişinə sahib olmayan bir şagird heç vaxt materialı səmərəli olaraq mənimsəyə bilməyəcəkdir. Çünki materialları mənimsəmək üçün onda müəyyən bir öyrənmək vərdişi olmalıdır ki, o bu vərdişin sayəsində tədris materialını səmərəli olaraq əldə edə bilsin. Bu vərdişə sahib olmayan şagird hər yeni materialın mənimsənilməsində müəyyən bir çətinliklə üzləşəcəkdir.

Xüsusən də tədrisin ardıcıllığı pozularsa və əlaqələndirmə vərdişi, gündəlik olaraq məşğul olmaq vərdişi olmazsa, hər növbəti material ona yeni bir həllolunmaz çətinlik kimi görünəcəkdir. Eləcə də şagirdlərə fəaliyyətlərini müstəqil icra etmək bacarıqları davamlı olaraq aşılanmalıdır. Çünki bu, müasir əmək bazarının tələblərindəndir. Belə bacarıqlara sahib olmaq vacib bir məsələdir ki, bu da müasir təhsilin özəyini təşkil edən tədqiqat və təqdimat bacarığının şagirddə formalaşmasına kömək etmiş olacaqdır.

Bu sadalananlara əsasən, onların yaş dövrləri də nəzərə alınaraq, uyğun formada tədris materiallarını şagirdlərə ötürmək lazımdır. Belə ki, kiçik yaş dövrlərində ətrafla ilkin primitiv tanışlıq və bilik bazasının azlığı, eləcə də öyrənmə potensialının kifayət qədər olmaması onlarla işin fərqli və mümkün qədər fərdi qurulmasını tələb edir. Aşağı yaş şagirdlərə biliklərlə ilkin tanışlığın daha çox praktik-əyləncəli yollarla öyrədilməsi məqsədəmüvafiq olardı. Çünki bu yaş qrupunda şagirdlər biliyin əldə edilməsinin tanışlıq mərhələsində olurlar. Bunun üçün də, onlara materialı daha çox əyləncə, oyun formasında təşkil edərək biliyi ötürmək faydalı olar.

Onu da qeyd etmək lazımdır ki, bütün yaş qruplarında, xüsusən aşağı yaş qruplarında şagirdlərin fərdi xarakteri mütləq nəzərə alınmalı və bu istiqamətdə onlarla davranaraq bilikləri aşılamaq lazımdır. Yuxarı yaş qruplarında tədris materiallarının çoxluğu, mürəkkəbliyi və digər səbəblər buna tam olaraq münasib olmasa da, aşağı yaş qruplarında bu istiqamətdə müxtəlif işlər görmək üçün potensial imkan nisbətən daha çoxdur. Ona görə də aşağı yaş qruplarında təhsilalanlara bilik, bacarıq və vərdişlərin bu yolla mənimsədilməsi onların gələcək yaş dövrlərində də buna vərdişlənərək öz yaş qruplarında tədris materiallarını öyrənmələrində faydalılığını artırmış olacaq. Bu da vərdiş xüsusiyyətlərinə sahiblənən şagird üçün məktəb həyatının növbəti mərhələlərinin rahat, səmərəli olmasına kömək edəcəkdir.

Nəzəri biliklərin istənilən yaş qruplarında bacarıqlara çevrilməsi praktiki olaraq icra edilərsə, bu, həmin nəzəri biliyin və bacarığın daha möhkəm olmasına şərait yaratmış olur. Bu cür əldə edilmiş bilik və bacarıqlar vərdişlərə çevrildikdən sonra praktikaya tətbiq edilməsi ehtiyacı yarandıqda şagird üçün daha önəmli əhəmiyyət daşıyır. Çünki istənilən bir işin icrasında səmərəli nəticə əldə edilməsi üçün güclü vərdişlərin olması önəmlidir.

Baxmayaraq ki, bəzən müxtəlif fənlərin tədrisi zamanı bilik, bacarıq və vərdişlər üçlüyünün lazımiliyinə ehtiyacın olmadığı vurğulanır, lakin fikrimizcə, hər bir tədris fənninin daha yaxşı mənimsədilməsi zamanı bunların hər birinin tətbiqi çox vacibdir. Misal üçün, ədəbiyyat, yaxud tarix dərslərində materialla tanışlıq və onun bilik olaraq şagirdə ötürülməsi ilə məsələ bitmiş olmur. Bu zaman şagird materialı bilik olaraq əldə etdikdən sonra materialdan yararlanmaq üçün mütləq şəkildə özünün tarix fənni üzərindən müqayisə və təhliletmə bacarıqlarından istifadə edərək materialdan daha yaxşı faydalana bilər. Həmçinin şagirdin təhliletmə, analitik düşüncə və müqayisəetmə vərdişlərinin güclü olması materialı daha səmərəli mənimsəmək üçün ona kömək etmiş olacaq.

Sözsüz ki, müasir təhsilin hədəfi olan əmək bazarına səriştəli insan yetişdirmək vəzifəsi əsas olaraq şagirdlərdə güclü tədqiqat və təqdimat bacarıqlarının olmasını tələb edir və bu da müasir təhsildə tədris materialının təkcə bilik olaraq mənimsədilməsi ilə kifayətlənməyib, materialın analitik olaraq tətbiqini istəyir. Bunun üçün şagirdlərə hər bir fənnin müstəqil şəkildə tədqiqat və təqdimat formasında icrasının öyrədilməsi və bu istiqamətdə onları alışdırmaq vacib şərtlərdəndir. Artıq bəllidir ki, müasir əmək bazarı insanın məhz bu xüsusiyyətlərə sahib olmasını tələb edir ki, bu da rəqabətli bazar iqtisadiyyatı ilə bağlıdır. Bunun üçün hər bir şagirdin

gələcək rəqabətə hazır olmasından ötrü bilik, bacarıq və vərdişlərinin yüksək olması əsas şərtdir. İstehsalata lazım olan önəmli məsələ bu üçlüyə işçinin daha yüksək hazır olmasıdır. Bu üçlüyə düzgün sahib olmağın sifarişi məhz müasir əmək bazarından gəlir ki, müasir təhsilin qarşısında duran əsas məsələ də bu tələbi ödəyə bilən vətəndaş hazırlamaqdır.

Mövzu ilə əlaqəli olaraq bacarıq və vərdişlərlə bağlı bir məsələni də qeyd edərək onun şagirdlərin bir vətəndaş olaraq yetişməsində vacib əhəmiyyətini təhsil üçün bildirmək istərdik. Belə ki, davranışla bağlı məsələlərdə müsbət xarakterli işlərin davamlı olaraq şagirdlərə təlqin edilməsi onların bu xüsusiyyətləri bacarıq və vərdişlərə çevirməsi gələcəkdə bir vətəndaş olaraq yetişmələrində rolu çox önəmlidir. "Bacarıq və vərdişlərin zəruriliyi mənəvi keyfiyyətlərin, o cümlədən əxlaqla və əməklə əlaqədar olan keyfiyyətlərin möhkəm mənimsənilməsində daha qabarıq müşahidə olunur" [4, s. 141].

Yuxarı sinif şagirdləri artıq bilik, bacarıq və vərdişləri özləri üçün qruplaşıdıraraq rasional düşüncə ilə müasir əmək bazarına addımlamalıdırlar. İndiki dövr üçün bu cür istiqamətlənmək daha vacib və münasib bir yoldur. Çünki əmək bazarına daxil olmaq üçün mütləq qabiliyyətin, bacarığın daha güclü olduğu istiqamətdə istiqamətlənmək fərd üçün uğurlu olmaq potensialını artırmış olur. Bu baxımdan da bilik, bacarıq və vərdişlərdən zamanında düzgün istifadə etmək çox vacib məsələdir. Şagirdlərin müxtəlif yaş qruplarında valideyn və müəllimlərin köməyi ilə sahib olduqları qabiliyyətlərini kəşf etmək və bu istiqamətdə onların inkişaf etməsinə dəstək olmaq onların gələcək həyatının uğurlu olmasına münbit zəmin yaratmış olacaqdır. "Bilik, bacarıq və vərdişlər qabiliyyətlərin inkişafı üçün zəruri şərtlərdən biridir. Uşaq müvafiq fəaliyyət sahəsi üçün zəruri olan bilik və bacarıqlara yiyələnməyibsə, notda yazmağı, çertyoj çəkməyi, rəsm etməyi və s. öyrənməyibsə, onun musiqi, texniki və rəsm qabiliyyətləri yaxşı inkişaf edə bilməz." [1, s. 423].

Qeyd etmək istərdik ki, bilik, bacarıq və vərdişlər insan həyatının inkişaf etməsi və onun fərd olaraq cəmiyyətdə həm mənəvi, həm təhsil, həm də digər istiqamətlərdə mövqeyini tutmasında mühüm rola malikdir. Bu üçlük insanın cəmiyyətdə formalaşması üçün ilkin dövrlərdən başlayaraq günümüzə qədər əhəmiyyətli rola malik olmuşdur. Fərdin cəmiyyətdə mövqeyini gücləndirməsi üçün bu üçlüyə sahib olması onun inkişaf etməsinə gətirib çıxarmış olur. Eləcə də təhsil prosesin mənimsənilməsində bilik, bacarıq və vərdişlər mühüm yer tutur. Belə demək yerinə düşər ki, təhsilin mənimsənilə bilməsini təşkil edir.

**Problemin aktuallığı.** Müasir təhsil sisteminin birbaşa olaraq ilkin vəzifələrindən biri olan şagirdin əmək bazarına hazırlaşdırılması məsələsi bu mövzunu aktual edir. Xüsusən də, bilik, bacarıq və vərdişlərin fərdin əmək bazarına, eləcə də təhsildəki uğurlu olmasında önəmli yer tutması qeyd edilən mövzunu cəmiyyət üçün aktual bir məsələ olduğunu özündə əks etdirir.

**Problemin elmi yeniliyi.** Mövzu əmək bazarı və təhsillə təhlil edilərək izah edilmiş və onun müəyyən vasitələrlə ifadəsi hər iki tərəflə müqayisə edilərək məqalədə qeyd olunmuşdur. Bundan əlavə, mövzunun əsasını təşkil edən bilik, bacarıq və vərdişlər üçlüsü insan cəmiyyətinin ilkin mərhələlərindən bəri əhəmiyyəti, rolu ətraflı olaraq əks edilmişdir.

**Problemin praktik əhəmiyyəti.** Təhsil zamanı, həmçinin, hətta əmək fəaliyyətində belə bu üçlükdən istifadə mexanizmi təhlil edilərək əməyin, təhsilin daha səmərəli və faydalı olmasında yararlanmaq mümkündür. Həmçinin mənəvi cəhətdən müsbət xarakterə yiyələnməyin bu mövzuda qeyd edilən üçlüyün əhəmiyyətindən faydalanmaq mümkün olacaqdır.

**Ədəbiyyat:**

1. Bayramov Ə. S; Əlizadə Ə.Ə. Psixologiya. -Bakı: ÇİNAR-ÇAP. - 2009, 620 s.
2. Əhmədov H.H. Zeynalova N.E. Pedaqogika. -Bakı: Elm və təhsil. -2021, 544 s.
3. Həsənov A.M., Ağayev Ə.Ə. Pedaqogika. – Bakı: Nasir.-2011, 496 s.
4. Kazımov N.M. Ali məktəb pedaqogikası. - Bakı: Əlfərül. -2006, 394s.
5. Məmmədova S. Oxumağı necə sevdirək. - Bakı, "Elm və Təhsil"-2019, 104 s.

**E-mail:** esmes_tx@list.ru

**Rəyçilər:** *filol.ü.fəls.dok., dos.* **R.A. Heydərov**
*filol.ü.fəls.dok.,* **R.Ə. Babayev**
**Redaksiyaya daxil olub:** 21.04.2023